| | |
|---|---|
| **Xəstəlik sinifi (XBT-10)** | **Gözün və gözün əlavə aparatının xəstəlikləri (H00-H59)** |

| | |
|---|---|
| **İlkin versiyanın tərtibatçı (İSİM)** | **Əlizadə İ.** |

| **XBT-10 rubrikası** | |
|---|---|
| **H 52** | **Refraksiya və akkomodasiya pozğunluğu** |

## Müalicə

**1. Konservativ müalicə** (tibbi göstərişə görə).

1.Eynəklərin və (və ya) kontakt linzaların seçilməsi ilə görmə korreksiyası;
2. Midriatik və sikloplegik dərman vasitələri – akkomodativ pozuntuların diaqnozu və müalicəsi üçün:
***Atropin sulfat (Atropine sulfate)***, məhlul (göz damcıları) 10 mq/ml, 1 damcı gündə 1-2 dəfə 5-10 gün və (və ya)
***Tropikamid(Tropicamide),*** məhlul (göz damcıları) 5-10 mq/ml, 1-2 damcı gündə 1-3 dəfə 0,5-1 ay ərzində, və ya
***Fenilefrin (Phenylephrine),*** məhlul (göz damcıları) 50 mq/ml, 1 damcı gündə 1-2 dəfə 0,5-1 ay müddətində;
3. Digər oftalmoloji dərman vasitələri – astenopiya, göz səthində yanaşı gedən patoloji dəyişikliklər zamanı, kontakt linzalar taxarkən:
***Dekspantenol(Dexpanthenol),*** oftalmoloji gel 50 mq/q, 1 damcı gündə 1-5 dəfə 7-14 gün ərzində;
***Dana qanından deproteinləşdirilmiş hemoderivat (hemodializat),*** oftalmoloji gel 8,3 mq/q, 1 damcı gündə 1-4 dəfə 7-21 gün ərzində; və ya
***Karbomer (carbomer),*** oftalmoloji gel 2 mq/q, 2,5 mq/q, 1 damcı gündə 3-5 dəfə 7-21 gün; və ya

***L-karnozin,*** məhlul (göz damcıları) 50 mq/ml, 1-3 damcı gündə 4-6 dəfə 7-21 gün; müalicə müddəti xəstənin klinik vəziyyəti ilə müəyyən edilir;
4. Astenopiya, göz səthində və gözyaşı pərdəsində yanaşı gedən patoloji dəyişikliklər zamanı, kontakt linzalar taxarkən:
***gözyaşı mayesini əvəz etmək üçün oftalmoloji məhlullar***, 1-2 damcı gündə 6-8 dəfə, müalicə müddəti xəstənin klinik vəziyyəti ilə müəyyən edilir.

**2. Cərrahi müdaxilə** (tibbi göstərişlərə əsasən).

**3. Fizioterapevtik müalicə** (tibbi göstərişlərə əsasən).

## ƏDƏBİYYAT:


1. Диагностика и лечение пациентов с болезнями глаза и его придаточного аппарата (взрослое население). Клинические протоколы 2022 (Беларусь). (утвержден постановлением Министерства здравоохранения Республики Беларусь от 05.09.2022 № 91) Available from: https://ref.az/ztE4rD

2. Постановление министерства здравоохранения Республики Беларусь (5 сентября 2022 г. № 91) Об утверждении клинического протокола «Диагностика и лечение пациентов с болезнями глаза и его придаточного аппарата (взрослое население)».Available from: https://ref.az/2S5EaVC